**Scientific Bulletin**, *№ 1*, 2021, pages 16-21
Khayal Gahraman Yusifov, iqtisad_192@mail.ru
***Western Caspian University, School of Business***
**DOI:** doi.org/10.54414/kdxs4374
**e-ISSN:** 2789-4614




# THE CURRENT STATE OF SUSTAINABLE ECONOMICGROWTH IN AZERBAIJAN

## ABSTRACT

The article examines the socio-economic nature of economic growth as aneconomic phenomenon and examines its 5 roles in the development of the na-tional economy, identifying the characteristics of economic growth and the factors affecting it, analyzing various conceptual approaches to ensuring economic growth, analyzing patterns of sustainable economic growth in Azerbaijan. Investigate the current state of provision and determine the means of regulation, study the interrelationship of reforms and economic growth in Azerbaijan, improve the regulatory framework for ensuring sustainable economic growth in Azerbaijan and the legal support mechanism for sustainable economic growth in Azerbaijan.At the same time, the transformation process implemented in Azerbaijan makes it necessary to carry out radical socio-economic reforms in various sectors
of the economy.

**Keywords:** sustainable economic growth, economic development, government program, development.

## AZƏRBAYCANDA DAVAMLI İQTİSADİ ARTIMIN TƏMİNOLUNMASININ MÜASİR VƏZİYYƏTİ

## XÜLASƏ

Məqalədə iqtisadi fenomen kimi iqtisadi artımın sosial-iqtisadi mahiyyəti- nin araşdırılması və milli iqtisadiyyatın inkişafında onun 5 rolunun öyrənilməsi, iqtisadi artımın xüsusiyyətləri və ona təsir edən amillərin müəyyənləşdirilməsi, iqtisadi artımın təmin olunmasına dair müxtəlif konseptual yanaşmaları araşdırmaq, iqtisadi artım modellərini təhlil etmək, Azərbaycanda davamlı iqtisadi ar- tımın təmin edilməsinin müasir vəziyyətini tədqiq etmək və tənzimlənməsi vasitələrini müəyyənləşdirmək, Azərbaycanda reallaşdırılan islahatların və iqtisadi artımın qarşılıqlı əlaqəsini öyrənmək, Azərbaycanda davamlı iqtisadi artımın təmin edilməsinin normativ-hüquqi təminatını və Azərbaycanda davamlı iqtisadi artımın təmin edilməsinin hüquqi təminatı mexanizminin təkmilləşdirilməsi məsələləri tədqiq edilmişdir.

Bununla birlikdə, Azərbaycanda həyata keçirilən transformasiya prosesi iqtisadiyyatın müxtəlif sahələrində köklü sosial-iqtisadi islahatların reallaşdırılmasını zərurətə çevirir.

**Açar sözlər:** davamlı iqtisadi artım, iqtisadi inkişaf, dövlət proqramı, inkişaf.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ОБЕСПЕЧЕНИЯ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РОСТА В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В статье рассматривается социально-экономическая природа экономического роста как экономического феномена, рассматриваются его 5 ро-лей в развитии национальной экономики, определяются характеристики экономического роста и факторы, влияющие на него, анализируются раз-личные концептуальные подходы к обеспечению экономического роста, анализируются модели устойчивого экономического роста в Азербайджане. Исследовать текущее состояние обеспечения и определить средства регулирования, изучить взаимосвязь реформ и экономического роста в Азербайджане, улучшить нормативную базу для обеспечения устойчивого экономического роста в Азербайджане и механизм правовой поддержки для устойчивого экономического роста в Азербайджане.

В то же время процесс трансформации, осуществляемый в Азербайджане, делает необходимым проведение радикальных социально-экономи- ческих реформ в различных секторах экономики.

**Ключевые слова:** устойчивый экономический рост, экономическое развитие, государственная программа, развитие.

## Giriş

Dünya ölkələrinin iqtisadi artım sürətləri bir-birindən tarixən fərqlənmiş, bu fərq XX əsrdə daha da artmağa başlamışdır. Bu səbəbdən bir çox iqtisadçılar dünya ölkələri üçün sabit artım sürətinə nəzərən müşahidə olunan artım kənarlaşmasının (divergence) fundamental səbəblərini iqtisadi artım nəzəriyyələri çərçivəsində izah etməyə cəhd etmişlər.

Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində iqtisadi artımın mahiyyətinin və rolunun dəyərləndirilməsi fərqli xarakter daşımışdır. Tarixən əhalinin artımı və buna müvafiq tələbatların genişlənməsi prosesi ilə resursların dinamikası arasındakı tarazlığın qeyri-münasibliyi iqtisadi artım probleminin aktuallığını şərtləndirmişdir. Eyni zamanda məhdud resurslar çərçivəsində artan tələbatların ödənilməsinin elmi əsaslarda təşkilini zərurətə çevirmişdir. Bu aspektdən müasir dövr üçün iqtisadi artıma məhdud resurslardan səmərəli istifadə olunması baxımından xarakterik olan xüsusiyyət, insan amilinin daha qabarıq formada həlledici amil kimi qəbul edilməsindən ibarətdir.

## Əsas hissə

Ümumilikdə, iqtisadi artım bir çox sosial-iqtisadi xarakterə malik olan problemlərin həllinə əsas yaradan başlıca vasitə kimi qiymətləndirilir. Belə ki, iqtisadi artım ümumidaxili məhsulun kəmiyyət artımını əks etdirməklə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. Başqa sözlə, iqtisadi artım cəmiyyətin inkişafının əsasında dayanan və lokomativ rolu oynayan amillərdən biridir. Buna baxmayaraq təcrübə göstərir ki, yalnız iqtisadi artımın təmin olunması naminə həyata keçirilən tədbirlər müəyyən zaman keçdikdən sonra nəinki cəmiyyətin qeyd olunan başlıca probleminin həllinə müsbət təsir göstərir, əksinə resursların səmərəsiz istifadə olunmasını şərtləndirir.

Hər bir ölkədə iqtisadi vəziyyəti iki mühüm göstərici ilə müəyyən etmək olar. Bunlardan biri inflyasiya səviyyəsi, digəri isə iqtisadi artımdır. İnflyasiya səviyyəsi ölkə iqtisadiyyatının sabitliyinin atributu, davamlı iqtisadi artım isə iqtisadi inkişafın və ölkənin rifah səviyyəsinin göstəricisidir. Doğrudur, iqtisadi inkişaf iqtisadi artımdan daha geniş məvhum olmaq etibarilə, özündə həm də sosial, ekoloji, mənəvi və s. kimi digər amilləri də birləşdirir. Amma birmənalı olaraq qəbul etmək olar ki, ölkədə iqtisadi inkişafa nail olmağın ən mühüm şərti ilk növbədə iqtisadi artımın davamlılığının təmin edilməsidir. Qeyd etmək lazımdır ki, istənilən iqtisadi artım uzunmüddətli iqtisadi inkişafı təmin edə bilməz və bu məqsədlə dinamik tarazlı iqtisadi artımın əldə edilməsi olduqca vacibdir. Başqa sözlə, elə bir iqtisadi artım səviyyəsi əldə edilməlidir ki, o, dövrdən-dövrə dinamik olaraq dəyişən məcmu tələb ilə məcmu təklifin bərabərliyini təmin etsin.

Belə bir iqtisadi artım səviyyəsinin əldə edilməsi məqsədilə müxtəlif iqtisadi konsepsiyalar işlənib hazırlanmışdır. Lakin bunlardan keynsçi və neoklassik iqtisadi məktəblərin təklif etdikləri iqtisadi artım modelləri daha geniş tətbiq edilmələri ilə seçilir

Son illər əldə edilmiş iqtisadi sabitlik fonunda aparılan iqtisadi islahatlar bazar iqtisadiyyatının infrastrukturunun formalaşması istiqamətində mühüm nəticələrə səbəb olmuşdur. Ölkənin iqtisadi tənəzzüldən tərəqqiyə keçməsi əhalinin iqtisadi vəziyyətinə müsbət təsir göstərmiş və sonrakı inkişaf üçün maliyyə nəticələrinin formalaşmasına şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, müasir dövrdə iqtisadi artımın təmin olunması və onun davam etdirilməsi iqtisadi islahatlar dövrü yaşayan respublikamız üçün mühüm vəzifələrdəndir. Araşdırmalar göstərir ki, müstəqilliyin ilk illərində dərinləşən iqtisadi böhran vəziyyətində yaşamış Azərbaycan Respublikası 1995-ci ildə davam edən geriləmə prosesinin qarşısını tam ala bilmiş və inkişaf istiqamətində dönüş yaranmasına nail olmuşdur [4, s. 121].

Həyata keçirilən məqsədyönlü siyasət və görülmüş işlər nəticəsində, ölkəmizdə son 10 ildə ümumi daxili məhsul istehsalı real ifadədə 2.4 dəfə, o cümlədən sənaye 2.3 dəfə, kənd təsərrüfatı 1.4 dəfə, tikinti sektoru 3.1 dəfə, nəqliyyat sektoru 2.2 dəfə, rabitə və informasiya sektoru 5.5 dəfə artmışdır. 2006-2015-ci illər ərzində adambaşına ÜDM istehsalı üzrə 2.1 dəfə artım qeydə alınmış, qeyri-neft sektoru üzrə yaradılmış əlavə dəyər real ifadədə 2.3 dəfə artmışdır.

İqtisadi artım modelləri real iqtisadi proseslərin əsas tərəflərini saxlamaqla müəyyən sadələşdirmələr apararaq onları abstrakt şəkildə təsvir edir. Bu modellər reallıqda baş verən iqtisadi artımın ayrı-ayrı tərəflərini təhlil edərək buradakı qanunauyğunluqları müəyyən etməyə imkan yaradır. Qeyd edək ki, iqtisadi artım modellərinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, istehsalın real həcmi onun əsas amilləri hesab olunan kapital və əmək hesabına artır. Məlum olduğu kimi, iqtisadi artım müxtəlif amillərin (iqtisadi resursların kəmiyyət və keyfiyyəti, onların dəyişməsi, iqtisadi texnologiyalar, elmi texniki tərəqqi və s.) təsiri altında formalaşır, amma bütün bunların baş verməsi üçün ilk öncə kapital qoyuluşu (investisiya) lazım gəlir. Elə bu səbəbdən də, keynsçi modellərdə investisiya iqtisadi artımın əsas tənzimləyicisi hesab olunur.

İqtisadi artım iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinin nəticəsi olduğuna görə onun hüquqi tənzimlənməsinin konkret aktlarından danışmaq qeyri-mümkündür. İqtisadi artımın hüquqi tənzimlənməsi dedikdə, iqtisadi inkişafa istiqamətlənmiş iqtisadi siyasətin reallaşdırılması üçün normativ hüquqi-aktların məcmusu basa düşülür. İqtisadi artımın hüquqi tənzimlənməsi dedikdə, iqtisadi artımın tənzimlənməsinin normativ hüquqi bazası başa düşülür. Mahiyyət etibarilə əksər normativ aktlar inkişaf təyinatlı olduğuna (iqtisadi subyektlərin səmə-

rəli fəaliyyət göstərməsinə şərait yaradılması) görə ümumi halda iqtisadi artımın hüquqi tənzimlənməsini iqtisadiyyatı tənzimləyən normativ aktların məcmusu kimi də təsvir etmək mümkündür [2, s. 76].

Azərbaycan Respublikasında son illər qəbul edilmiş iqtisadi artımın daha da sürətləndirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş Proqramlara “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı 2002-2005-ci illər”, “Azərbaycan Respublikasında İnkişaf naminə İnformasiya və Kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsinin Milli strategiyası (2003-2012-ci illər)” “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2003-2008-ci illər)”, “2003 - 2005-ci illər yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqram”larını göstərmək olar.

Ölkəmizin iqtisadi və sosial həyatında müşahidə olunan müsbət meyllərin, o cümlədən əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” təsdiq olunmuşdur. Dövlət Proqramı özündə əsas 9 strateji məqsədi əks etdirir [1, s. 5].

## Nəticə

Nəticə olaraq deyə bilərəm ki, İqtisadi artım iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinin nəticəsi olduğuna görə onun hüquqi tənzimlənməsinin konkret aktlarından danışmaq qeyri-mümkündür. İqtisadi artım müəyyən müddət ərzində adambaşına düşən ÜDM-nin artımıdır. İqtisadi artım nəticəsində iqtisadiyyatda adambaşına düşən real gəlirlərin artması müşahidə olunur. İqtisadi inkişafın əldə olunması üçün iqtisadi artımın təmin edilməsi zəruridir. İqtisadi artım əhalinin yaşayış səviyyəsini yüksəldir, gəlirlərin bölgüsündə ədalətsizliyi azaltmağa imkan verir və əhalinin təbəqələşməsini azaldır. Müasir dövrdə iqtisadi artımın təmin olunması və onun yüksək templərlə davam etdirilməsi iqtisadi islahatlar dövrü yaşayan respublikamız üçün mühüm vəzifələrdəndir.

Müasir dövrdə milli, dövlət mənafelərinin qlobal və regional mənafelərdən asılılığı iqtisadi inteqrasiyanın zəruriliyini şərtləndirir, həmçinin onu vahid iqtisadi inkişaf modeli kimi meydana çıxarır.

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasında İnkişaf naminə İnformasiya və Kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsinin Milli strategiyası (2003-2012-ci illər)" Proqramı.
2. Əhmədov M. A . Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003.
3. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı, 2005.
4. Meybullayev M. X. " Bazar sistemi və iqtisadi artım". Bakı, 1996.
5. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, Elm, 2001.
6. Sadıqov K. F. Milli iqtisadiyyatın tənzimlənməsinin konseptul əsasları Bakı, 1999.